# Şairin sənət idealı

Xalq şairi Nəriman Həsənzadə illərdir ki, oxucuların çox sevdiyi və müntəzəm oxuduğu, ədəbi tənqidin yüksək dəyərləndirdiyi, həmkarlarının ehtiram göstərdiyi söz ustadlarından biridir.

Şöhrətin sevinci, yaşın kədəri
Tərs kimi ikisi bir vaxta düşür, -

deyən Nəriman Həsənzadə bir şair kimi elə maraqlı poetik dünya sahibi, bədii təfəkkür yiyəsidir ki, onun oxucu ürəyində öz yeri, öz yozumu var. Bu günlərdə sevimli şairin yeddicildlik - "Seçilmiş əsərləri"nin birinci cildi çapdan çıxmışdır. Ədəbi tənqid tərəfindən bütün yaxşı şairlərin ünvanına qanadlanan eyni xislətli xoş sözlər var: xəlqi, vətəndaş şairdir, istiqlal və azadlıq şairidir, hürriyyət vurğunudur və sairə. Əlbəttə, bu məziyyətlərin hamısını Nəriman Həsənzadə yaradıcılığına aid etmək mümkündür. Yəni bu, çətin deyil ki, nümunələr əsasında şərh edəsən ki, müəllif hansı şeirində xəlqi şairdir, hansında daha çox fəlsəfidir, yaxud azadlıq carçısıdır. Nəriman Həsənzadə poeziyası, bütün bunlarla bərabər, etiraflardan ibarətdir. Şairin yeni kitabında da bu qərib və qəribə duyğular duyulmaqdadır:

Bir insan ömrünü girov qoymuşam,
Bir şair ömrünü yaşatmaq üçün.

Doqquz bölmədən ibarət olan yeni kitabda Nəriman Həsənzadə yaradıcılığının əks-sədası o qədər geniş və rəngarəngdir ki, bəzən hansı şeiri təqdim etməkdə, hansı poetik nailiyyətdən, nümunədən danışmaqda çətinlik çəkirsən. Çünki bədii sözün ləyaqət bayrağını bütün yaradıcılığı boyu ucalıqda saxlayan Nəriman Həsənzadənin qələmindən nə çıxıbsa, məzmunludur, bitkindir və mükəmməldir. Onun lirik şeirlərində oxucu ürəyini titrədən, insan ovqatında xoş duyğular, intibahlar oyadan, min köhnəliyin içində min bir təzəlik yaradan böyük Sözün qüdrəti var:

Nə vaxt yetişirsə böyük sənətkar,
Hər xalqın şöhrəti o vaxta düşür.

Ötən əsrin sonlarında xalq şairi Bəxtiyar Vahabzadə Nəriman Həsənzadənin bir kitabına yazdığı ön sözdə bildirirdi: "...Nəriman Həsənzadə dünyada gözəllik, nəciblik, zəriflik axtarır və bunları bəzən olmayan yerdə də görür, çünki gözəllik və zəriflik bu şairin sənət idealıdır. O, yalnız bu ideya eşqinə yazıb-yaradır. Bax budur onun nəğmələrinin baş motivi". Elə bu motivə sadiqliyidir ki, Nəriman Həsənzadənin şeirləri həmişə oxucunu isidib, düşündürüb, bəzən də bilmədiklərini ona həzincə pıçıldayıb:

Yer qazıram, qum çıxır,
Bal yeyirəm, mum çıxır.
Şeytandan danışırlar,
Erməni qohum çıxır.

Yeni nəşrə filologiya elmləri doktoru, professor Buludxan Xəlilov yazdığı ön sözdə haqlı olaraq Nəriman Həsənzadəni "taleyi özü ilə doğulan" şair adlandırır. Həqiqətən də iki əsrin ələyindən çıxaraq müasirlərinin sırasında klassikləşən, seçilən, çağdaş poeziyamızın görkəmli nümayəndəsi Nəriman Həsənzadə ədəbiyyatımızın ədəbi üfüqlərində parlayan bir sənətkardır. Adətən deyirlər ki, şairlər öz talelərini yazırlar. Maraqlıdır ki, Nəriman Həsənzadənin taleyi elə əsl şair taleyidir. Nədən belə söyləyirik? Belə bir fikir var ki, əsl şeir dərddən doğulur, Nəriman Həsənzadə erkən atasını itirib, sonra da qayğısına, məhəbbətinə sığındığı anasını. Yetimliyin hər cür əzabını, zülmünü gördüyündən çox həssas və kövrək ürəyə malikdir. Ona görə də bu yuxa qəlbin pıçıldadıqları təsirli, yaddaqalan olub. Xarakterindəki, davranışındakı nəzakət, diqqət, səmimiyyət bütün şeirlərinin ahəngində var. Nəriman Həsənzadə şeirlərinin bir qüdrəti də bax

bundadır. Onun şeirlərindəki səmimiyyət yüzlərlə nəğməyə qanad verib. Elə yeni nəşrdə də tanınmış bəstəkarların musiqi həyatı verdiyi onlarla nəğməsi toplanıb. Bu şərqilərin hər birində böyük bir məhəbbətin, insan duyğularının yaşantıları dil açır. Nəriman Həsənzadə şeirləri poeziyamızın, musiqi libası geymiş misraları isə mahnı janrımızın inciləridir. Xalq artisti Zeynəb Xanlarovanın ifasında səslənən onlarla mahnısı var Nəriman Həsənzadənin. Bu gün də o nəğmələri dinləyəndə sanki retro aləminin sehrinə düşürsən,

Nə şərəfli bir iş ki, bu gün Nəriman Həsənzadə haqqında, onun şeirləri barəsində söz demək səadəti bizə də nəsib olub. Yaradıcılığının baş qəhrəmanı milli-mənəvi dəyərlərimiz, tariximiz, kökümüz, Vətənimiz olan Nəriman Həsənzadə haqqında fikir yürütmək, münasibət bildirmək, professor Nizami Cəfərovun təbirincə söyləsək, əslində elə Azərbaycan poeziyası barəsində danışmaq deməkdir. Bu iki varlığı bir-birindən ayırmaq qeyri-mümkündür. Nəriman Həsənzadə poeziya adlı bu sirli aləmin əbədiyaşar sakinidir.

Yeni nəşrdə hər yaşın oxuyacağı şeirlər var. İstedadlı şair uşaqlar üçün də maraqlı, yaddaqalan şeirlər müəllifidir. Kitabın sonunda "Heç nə istəməyən qız" bölümündə məhz balacalar üçün qələmə alınmış poetik nümunələr toplanıb:

- Ata güllü bir corab al,
heç nə daha istəmirəm.
Sən tülkülü bir kitab al,
heç nə daha istəmirəm.
Bir plaş al, iki bayraq,
bir qara zont, bir ağ papaq...
Heç nə daha istəmirəm...

Uşaqlar üçün qələmə alınmış "Qızım", "Xatirə", "Heykəl", "Şeytan qız", "Nazim", "Qızıl lələk nağılı", "Solmaz" kimi şeirlər balacaların duyğu və düşüncələrinə, yaşlarına, təfəkkür tərzinə uyğundur. Bu şeirlərdə həm də elə maraqlı süjet xətti, yadda qalmaq qüdrəti var ki, baş sındırıb əzbərləməyə lüzum yoxdur. Bir dəfə eşitdin, yadda qalır. Sadə, düşündürücü və mənalı şeirlərin uşağın təfəkküründə, danışıq tərzində təsiri əvəzsizdir.

Nəriman Həsənzadə şeirlərinin birində söyləyir: "Şairlə bir görüş, ya adi bir söhbət Allaha xidmətdi, bəndəyə hörmət". Həqiqətən də Nəriman Həsənzadə kimi sevilən bir şairin şeirlərini oxumaq, onun poeziyasının cazibəsinə düşmək oxucuya mənəvi rahatlıq, ruhi bir sakitlik gətirir. Onun şeirlərindəki incəlik, zəriflik, insan taleyinə olan həssas münasibət və müdriklik hikmət dəryasından süzülən incilərə bənzəyir. Oxuduqca heyrətlənirsən, düşünürsən, başdan-ayağa nəcib duyğulara, fikirlərə bələnirsən:

Qaranlıq işıqdan görünmür heç vaxt,
İşıq qaranlıqdan görünür ancaq.

Bax bu fəlsəfəsinə, bu müdrik fikirlərinə görə Nəriman Həsənzadə poeziyasında qaynayan bədii dilin şəffaflığı, səlisliyi, sərrastlığı oxucunu daim bu böyük şairin şeirlərinə çəkir. Müəllif inamla söyləyir ki, "kitab da bir ömrün vəsiqəsidi, gah sevinc bürüyər, gah kədər məni". Biz də bu ömür vəsiqəsinin hər vərəqində Azərbaycan poeziyasının çox görkəmli nümayəndəsinin real həyat sınaqlarından çıxmış bədii fikrinin, poetik düşüncəsinin şahidi olduq.

**Flora XƏLİLZADƏ,**

**Azərbaycan.- 2010.- 19 dekabr.- S. 5.**